

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 232 (23.394)

*10 dekabr 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan dövlət başçısı bu ilin bütün istiqamətlər üzrə ikitərəfli münasibətlərin inkişafı üçün uğurlu olduğunu, prezidentlər arasında çox mühüm görüşlərin keçirildiyini bildirib. Prezident İlham Əliyev prezidentlərin "yol xəritələri"nin implementasiyası üzrə işin fəallaşdırılması barədə tapşırıqların verildiyini və bu prosesin çox uğurla getdiyinə şad olduğunu bildirib.

Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkin Rusiya-Azərbaycan və Azərbaycan-Rusiya işgüzar şuralarının fəal işinin olduğunu, layihələrin sayının artdığını və onların dəstəkləndiyini vurğulayıb. Maksim Oreşkin Prezident İlham Əliyevin xatırlatdığı altıncı "yol xəritəsi"nin çox mühüm istiqamət olduğunu qeyd edib.



## Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

"Beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 dekabr tarixli Sərəncamına uyğun olaraq və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər 2020-ci il fevralın 9-na təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 9 dekabr 2019-cu il*

## Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün yeni qərargah binası istifadəyə verilmişdir

Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev demişdir: ***"Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb, ordu quruculuğu sahəsində böyük inkişaf var. Bu gün Naxçıvan ordusu ən müasir silahlarla təchiz edilib, texnikanın alınması təşkil olunub və bu proses davam etdirilir".***

Müdafiə təhlükəsizliyinin təmin olunması Naxçıvan Muxtar Respublikasının davamlı inkişafının əsasıdır. Muxtar respublikada ordu quruculuğuna diqqətin artırılması, silah və texnika təminatı ilə yanaşı, həm də hərbi hissələrdə müasir xidmət infrastrukturunun və yaşayış şəraitinin yaradılması sahəsində tədbirlər görülür.

Dekabrın 7-də Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün yeni qərargah binası istifadəyə verilmişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport vermişdir.

Ali Məclisin Sədri əsgərləri salamlamışdır.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək demişdir: Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Xidmətin təşkili və şəxsi heyətin yaşayışı üçün ardıcıl tədbirlər görülür. Muxtar respublikanın ucqar və keçilməz dağlıq ərazilərində yerləşən bütün hərbi hissələrə yollar çəkilmiş, müdafiə zolağındakı məntəqələr davamlı elektrik enerjisi, təbii qaz və içməli su ilə təmin edilmişdir. Bu ilin ötən dövründə Naxçıvan şəhərindəki hərbi şəhərciyin yaşayış binalarında yenidənqurma işləri aparılmış, qarnizon uşaq bağçası və tam orta məktəbin binası təmir olunmuş, 220 yerlik zabit yataqxanasında müasir sosial-məişət şəraiti yaradılmışdır. Hərbi hissələr üçün 5 anqar, ön mövqelərdə 2 yataqxana tikilərək istifadəyə verilmiş, 2 tabor mərkəzi əsaslı təmir olunmuşdur. Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit və gizir ailələri üçün 5 mərtəbəli, 44 mənzilli yaşayış binası tikilmiş və park salınmışdır. Hazırda Naxçıvan şəhərindəki yeni hərbi şəhərcikdə inşa olunan üçmərtəbəli qərargah binasında son tamamlama işləri aparılır, hər biri üçmərtəbəli 2 yataqxana binasının tikintisi isə davam etdirilir. Kərəm Mustafayev yaradılan şəraitə və göstərilən qayğıya görə Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti, eləcə də zabit-gizir ailələri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni qərargah binasının istifadəyə verilməsi münasibətilə şəxsi heyəti təbrik edərək demişdir: ***"Azərbaycan ordusu müstəqilliyimizin qarantıdır"***, – deyən ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müasir tələblər nəzərə alınmaqla uğurla davam etdirilir. Həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan ordusu inkişaf edərək güclü ordulardan birinə çevrilmişdir. Muxtar respublikamızda da ordu quruculuğu işləri uğurla davam etdirilir. Ötən dövrdə Naxçıvanda Əlahiddə Ümumqoşun Ordu, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası, Naxçıvan Əlahiddə Əməliyyat Briqadası yaradılmış, qısa müddətdə mühüm təşkilatlanma və inkişaf yolu keçilmiş, hərbi hissələrdə geniş quruculuq işləri aparılmışdır.



Ali Məclisin Sədri demişdir: Əlahiddə Ümumqoşun Ordunun strukturuna daxil olan hərbi hissələrin təyinatlarına uyğun olaraq yerləşdirilməsi, yeni əsgəri-məişət komplekslərinin tikilməsi, müasir silah-sursatla təminatı qarşıda duran əsas vəzifələrdəndir. Bu gün qərargah binası istifadəyə verilən hərbi hissənin yaradılması və müasir əsgəri-məişət kompleksi ilə təmin olunması da görülən işlərin davamıdır. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərindəki hərbi hissələrlə yanaşı, ən ucqar məntəqələrdəki postlar üçün də müasir əsgəri-məişət kompleksləri tikilərək istifadəyə verilmişdir. Əsgərlərimiz yaradılan şəraitdən istifadə edərək Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini və müdafiəsini etibarlı təmin edirlər.

Ali Məclisin Sədri muxtar respublikanın müdafiəsində və təhlükəsizliyində xidməti olanlara təşəkkür edərək demişdir: Bu gün qarşıda duran əsas vəzifə hərbi hissələrin təyinatına uyğun olaraq hazırlıqların davam etdirilməsidir. Əlahiddə Ümumqoşun Ordunun strukturuna daxil olan hər bir hərbi hissə qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməli, şəxsi heyət hərb sənətinə mükəmməl yiyələnməlidir. Əgər bundan sonra da yaradılan şəraitdən düzgün istifadə olunsa, o zaman nəticə də yaxşı olacaqdır. Əlahiddə Ümumqoşun Ordu yaradılarkən qarşıda duran əsas vəzifələrdən biri peşəkar ordunun formalaşdırılması idi. Ona görə də bu gün hər bir hərbi hissənin təyinatına uyğun peşəkar şəxsi heyətlə təmin olunması, əsgərlərin müddətdən artıq xidmət edən hərbi qulluqçularla, gizir və zabitlərlə əvəzlənməsi uğurla aparılır.

Qeyd olunmuşdur ki, aparılan quruculuq işləri yalnız Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrini əhatə etmir. Eyni zamanda "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası üçün əsgəri-məişət komplekslərinin qurulması, lazımi xidmət şəraitinin yaradılması, müasir texnika, silah və avadanlıqlarla təminat uğurla həyata keçirilir. Bu ilin ötən dövründə bir zastava yenidənqurmadan sonra istifadəyə verilmiş, iki zastavada isə yenidənqurma işləri davam etdirilir. Həmçinin Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının Şərur taboru üçün yeni kompleks, Naxçıvan Qarnizonu üçün müasir tələblərə cavab verən hərbi hospital inşa olunur. Bütün bunlar muxtar respublikamızda hərbi xidmətin nümunəvi təşkilinə

*Ardı 2-ci səhifədə*




hesablanmışdır. Qarşıda isə bir vəzifə durur: təyinat üzrə vəzifə borcunu yaxşı öyrənmək və xidməti lazımi səviyyədə icra etmək.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmiş, şəxsi heyətə xidmətdə uğurlar arzulamışdır.

Zabit Orxan Mustafayev çıxış edərək demişdir: Əlahiddə Ümumqoşun Ordunun hər bir bölməsi göstərilən qayğı nəticəsində öz döyüş qabiliyyətini daha da artırır, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşdırılır. Ali Məclis Sədrinin müəyyənləşdirdiyi “Hamı bir nəfər, bir nəfər hamı üçün” şüarı hər bir zabit və əsgər üçün işdə və əməldə birlik, qardaşlıq rəmzinə çevrilmişdir. Orxan Mustafayev bütün şəxsi heyət adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Hərbi qulluqçu Ayxan Fətullayev demişdir: “Naxçıvan Muxtar Respublikasında hərbi qulluqçuların sosial-məişət və xidməti şəraitinin yaxşılaşdırılması, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində görülən işlər hər birimizi sevindirir, daha yaxşı xidmət etməyə səfərbər edir. Yeni yaradılan xidmət yerləri orduya cəlb olunan mənim kimi yüzlərlə hərbi qulluqçunun məişət şəraitinin, ailə vəziyyətinin və sosial rifahının yaxşılaşdırılmasına hesablanıb”. Ayxan Fətullayev çıxışını şeirlə yekunlaşdırmışdır:

Günnütü fəth edən müzəffər ordu,
Bizim qürurumuz, vüqarımızdır.
Bir nəfər hamıdır, hamı bir nəfər,
Bu bizim əməldə şüarımızdır!

Hərbi hissənin şəxsi heyəti “Hamı bir nəfər, bir nəfər hamı üçün” şüarını səsləndirmişdir.

Ali Məclisin Sədri qərargah binasının açılışını bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, üçmərtəbəli qərargahın birinci mərtəbəsində bölmə komandirlərinin iş otaqları və məxfi hissə, növbətçi və istirahət otağı vardır. İkinci mərtəbədə siniflər, zabitlər üçün xidməti otaqlar, üçüncü mərtəbədə isə hərbi hissənin idarə heyəti üçün xidməti otaqlar və əməliyyatın planlaşdırılması mərkəzi yerləşir. Sinif otaqlarında proyektor quraşdırılmış, nəzəri hazırlıq üçün lazımi şərait yaradılmışdır.

Hərbi hissədə müddətdən artıq xidmət edənlər üçün 44 yerlik yataqxana da yaradılmış, avtomobil saxlancları qurulmuş, ətraf abadlaşdırılmış və yaşıllıqlar salınmışdır.

Ali Məclisin Sədri xidmətin təşkili ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Şərur rayonunun Xələc kəndi müasirliyə qovuşdu

Naxçıvan Muxtar Respublikasında aparılan genişmiqyaslı quruculuq işləri bütün şəhər və kəndləri əhatə edir. Yeni sosial obyektlər inşa olunur, əhalinin rahat yaşayışı təmin edilir. Bu il Şərur rayonunun Xələc kəndində də geniş quruculuq işləri görülmüş, kənd muxtar respublikanın abad yaşayış məntəqələri sırasına daxil olmuşdur.

## Yeni məktəbdə müasir tədris şəraiti yaradılıb





Dekabrın 9-da Xələc kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbin açılışını bildirən lenti kəsmişdir.

Ali Məclisin Sədri məktəb binasında yaradılan şəraitlə maraqlanmışdır. Məlumat verilmişdir ki, tədrisin keyfiyyətinin yüksəldilməsi üçün geniş imkanların yaradıldığı müasirtipli məktəb 360 şagird yerlikdir. Üçmərtəbəli yeni təhsil ocağında 218 şagirdin təlim-tərbiyəsi ilə 29 müəllim məşğul olur. Məktəbdə 3-ü elektron lövhəli olmaqla, 22 sinif otağı, hərbi kabinə, kimya, biologiya və fizika laboratoriyaları, şahmat sinfi, kompüter, müəllimlər və psixoloq otaqları, kitabxana və idman zalı vardır.



Şagirdlərin mənimsəmə qabiliyyətlərinin möhkəmləndirilməsi üçün kimya, biologiya və fizika laboratoriyalarında müasir avadanlıqlar quraşdırılmış, idman zalında lazımi şərait yaradılmışdır.

Məktəbdə 20 kompüter və 3 elektron lövhə quraşdırılmış, kompüterlər və elektron lövhələr internetə qoşulmuşdur.

Muxtar respublikanın məktəblərində yaradılan kitabxanalar şagirdlərin mütaliə imkanlarını genişləndirir, dünyagörüşlərini artırır. Məktəbin kitabxana fondunda 2345-i dərslik və 1943-ü bədii ədəbiyyat olmaqla, 4288 kitab vardır. Burada “Oxunması zəruri olan kitablar”dan ibarət guşə yaradılmışdır. Kitabxanaçı Zəminə Şabanova şagirdlərin hərtərəfli biliklərə yiyələnməsi üçün yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Məktəblə tanışlıq zamanı Cəmşid Naxçıvanski Muzeyi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında keçirilən interaktiv dərs izlənmişdir.

2019-2020-ci tədris ilində məktəbin birinci sinfinə 17 şagird qəbul olunmuşdur.

Gənclərin əqli inkişafında, onların asudə vaxtlarının səmərəli təşkilində və dəqiq elmlərə yönləndirilməsində şahmatın mühüm rolu vardır. Məktəbdəki şahmat sinfi lazımi avadanlıqlar və dərsliklərlə təmin edilmişdir. Müəllim Fətulla Nəsirov şahmat dərslərinin mükəmməl tədrisi üçün yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri müəllimlər otağında məktəbin pedaqoji kollektivi ilə görüşmüşdür.

Xələc kənd tam orta məktəbinin direktoru Lətif Orucov çıxış edərək demişdir ki, Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikamızın şəhər, rayon və kəndlərində geniş quruculuq işləri görülür. Bu işlərin davamı kimi Xələc kəndində də kompleks quruculuq və abadlıq işləri aparılmışdır. Bunlardan biri də müəllim və şagirdlərin istifadəsinə verilən kənd tam orta məktəbidir.



Lətif Orucov Xələc kəndində müasir məktəb binasının qurulmasına görə məktəbin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Məktəbin müəllimi Zəriş Quliyeva minnətdarlıq edərək demişdir: Təhsil quruculuğu, məktəb işi gələcəyimizə xidmət edir. Muxtar respublikada bu sahədə görülən işlər də etibarlı gələcəyin təminatıdır. Məktəbimizdə tədris üçün hər cür şərait yaradılmış, müasir kompüterlərlə, elektron lövhələrlə təchiz edilmişdir. Bütün bunlar şagirdlərimizin daha yaxşı təhsil almalarına imkan verəcəkdir.



Müdriklər deyir ki, biliyin ağacı olmaq üçün zəhmət çəkmək lazımdır. Müasir tədris şəraiti daha çox zəhmət çəkməyi, öz üzərimizdə işləməyi tələb edir. Vətənpərvər və savadlı gənclik yetişdirmək əsas vəzifəmizdir. Bu yolda səylərimizi əsirgəməyəcək, etimadı doğruldacağıq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xələc kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Ümummilli lider Heydər Əliyev deyirdi ki, ***“Təhsil millətin gələcəyidir”.*** Bu gün ümummilli liderin siyasi xətti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müasir tələblər də nəzərə alınmaqla uğurla davam etdirilir. Bu siyasi xəttin nəticəsi bu gün Xələc kəndinin timsalında aydın görünür.

“Müstəqil dövlətin aparıcı qüvvəsi onun təhsilli, vətənpərvər gənclərdir. Ölkəmizdə təhsilə göstərilən qayğının əsas məqsədi də gələcəyimiz üçün təhsilli və vətənpərvər gənclər hazırlamaqdan ibarətdir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, təhsilin inkişafında müəllim hazırlığı, onların fəaliyyətləri üçün yaradılan şərait mühüm əhəmiyyətə malikdir. Yaradılan şərait imkan verir ki, müəllimlər daha səylə çalışaraq gələcəyimiz olan gəncləri hərtərəfli hazırlasınlar.

Ali Məclisin Sədri demişdir: Gənclərin müxtəlif peşə sahələrinə yönləndirilməsi məktəbin qarşısında duran əsas vəzifədir. Çünki məktəbi bitirən hər bir gənc mütləq bir peşə sahibi olmalıdır. Bu gün muxtar respublikanın bütün ərazisində internetə çıxışın təmin edilməsi gənclərin hərtərəfli inkişafına hesablanmışdır. Dərslərin qavrama yolu ilə öyrədilməsi şagirdlərin intellektual inkişafında vacib məsələdir. Xələc kənd tam orta məktəbindəki elektron lövhələr, laboratoriyalar, fənn kabinələri, internetə çıxışı olan kompüterlər, kitabxana imkan verir ki, müəllimlər dərsləri qavrama yolu ilə öyrətsinlər. Məktəbdə

*Ardı 3-cü səhifədə*





yaradılan şərait tədrisin tələblərinə cavab verən səviyyədədir. Müəllimlər də müasir texnologiyanı mənimsəməlidir. Xələc kənd tam orta məktəbində yaradılan şərait də gənclərin hərtərəfli və vətənpərvər hazırlanmasına hesablanmışdır. Bu yolda müəllim tələbkarlığı və şagird çalışqanlığı öz bəhrəsini verəcəkdir.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına, nailiyyətlərin daha da artacağına əminliyini bildirmiş, kollektivə tədrisdə uğurlar arzulamışdır.

Binanın həyətində bufet və fərdi qazanxana tikilmiş, açıq idman qurğuları quraşdırılmış, abadlıq işləri aparılmış, yaşıllıq sahəsi salınmış, müasir suvarma və işıqlandırma sistemi çəkilmişdir.

## Xələc Kənd Mərkəzi istifadəyə verilmişdir





Dekabrın 9-da Xələcdə kənd mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsdikdən sonra binada yaradılan şəraitlə tanış olmuşdur.






Bildirilmişdir ki, kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, feldşer-mama məntəqəsi, statistika otağı, klub, o cümlədən Yeni Azərbaycan Partiyası Xələc kənd ərazi ilk təşkilatı, arxiv və 56 yerlik zal yerləşir. Bütün təşkilatlar üçün müasir iş otaqları ayrılmış və lazımi avadanlıqlarla təchiz edilmişdir.

Kənd kitabxanasında 2923 kitab vardır ki, onlardan da 970-i latın, 1953-ü kiril əlifbası ilə çap olunmuş ədəbiyyatlardır.

Yeni Azərbaycan Partiyası Xələc kənd ərazi ilk təşkilatının sədri Cümşüd Zahirli demişdir: Xələc müasir inkişaf dövrünü yaşayır. Kənddə istifadəyə verilən sosial obyektlər sakinlərin razılığı ilə qarşılanır. Partiya



üzvlərinin sayı ilbəil artır. Hazırda ərazi ilk təşkilatının 187 üzvü vardır ki, onların da 56-sı gənc, 26-sı isə qadındır. Yeni Azərbaycan Partiyasının üzvləri qarşıdan gələn bələdiyyə seçkilərində fəal iştirak edərək layiqli namizədlərə səs verəcəklər.

256 nömrə tutumlu yeni nəsil ATS Xələc kəndində 140 abonentə xidmət edir. Kənddə 44 internet istifadəçisi vardır. Yeni poçt şöbəsi də sakinlərin istifadəsinə verilmişdir.

Həyətdə abadlıq işləri aparılmış, müasir suvarma və işıqlandırma sistemi çəkilmişdir.

Binanın birinci mərtəbəsində feldşer-mama məntəqəsi üçün 3 otaq ayrılmışdır. Məntəqə ginekoloji müayinə masası, mama müayinə alət dəsti, təcili yardım çantası, qlükometr, tərəzi, boyölçən, soyuducu və tibbi ləvazimatlarla təmin edilmişdir.

Tibb işçisi Aygün Ələsgərli yaradılan müasir iş şəraitinə görə minnətdarlıq etmiş, insanların sağlamlığının qorunmasında səylərini artıracaqlarını bildirmişdir.

Ali Məclisin Sədri tibbi xidmətin təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

## Yengicə-Xələc-Çomaxtur kənd avtomobil yolu yenidən qurulmuşdur





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: *“Yol olan yerdə kənd təsərrüfatının inkişafı da sürətlənir, yol olan yerdə sosial məsələlər də öz həllini tapır. Bunun çox böyük əhəmiyyəti var”.*

Muxtar respublikada yol infrastrukturunun yenilənməsi istiqamətində işlər davam etdirilir.

*Ardı 4-cü səhifədə*

Xüsusilə kənd yollarının yenidən qurulması, həmçinin daxili yolların təmiri iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edir.

Dekabrın 9-da Yengicə-Xələc-Çomaxtur kənd avtomobil yolu istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, ümumi uzunluğu 7730 metr olan Yengicə-Xələc-Çomaxtur kənd avtomobil yolu yenidən qurulmuş, asfalt örtük salınmışdır. 2000 metr uzunluğunda kənddaxili yollar təmir olunmuş, qum-çınqıl qatı verilmişdir. Yolun üzərində 25 su keçidi qoyulmuş, 540 metr beton su kanalı çəkilmişdir.

## Kənddə yeni xidmət mərkəzi fəaliyyətə başlamışdır






Həmin gün Xələc kəndində yeni xidmət mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən



lenti kəsmişdir.

Xidmət mərkəzində bərbərxana, gözəllik salonu, dərzi, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazaları, eləcə də 2 anbar yerləşir. Mərkəzdə 6 sakin işlə təmin olunmuşdur. Mağazada ərzaq və sənaye malları ilə yanaşı, kənddəki ailə təsərrüfatlarında istehsal olunan müxtəlif çeşidli məhsullar üçün ayrıca bölmə yaradılmışdır.

Xidmət mərkəzində işlə təmin olunan İradə Qarayeva öz minnətdarlığını bildirmişdir.

Xidmət mərkəzinin istifadəyə verilməsindən sonra sakinlərlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sakinləri kənddə aparılan quruculuq işləri münasibətilə təbrik edərək demişdir: Bu gün Xələc kəndi ölkəmizin abad yaşayış məntəqələri sırasına daxil oldu, kənddə lazım olan infrastruktur yaradıldı. Kənddə məktəb binasının, kənd və xidmət mərkəzlərinin, feldşer-mama məntəqəsinin, yolun istifadəyə verilməsi kəndin inkişafına və sakinlərin rahat yaşayışına xidmət edir. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir. Bu gün ümummilli lider Heydər Əliyevin yolu, əməlləri yaşayır və bu yol Azərbaycanı inkişaf edən ölkələr sırasına çıxarmışdır. Ölkəmizin hər bir yaşayış məntəqəsi müasirliyə, inkişafa qovuşmuş, insanların rahat və təhlükəsiz yaşayışı təmin edilmişdir. Aparılan quruculuq işləri Xələc kəndində də inkişafa səbəb olmuşdur. Sakinlər bu imkanlardan istifadə edərək torpaqları əkməli, təsərrüfatları genişləndirməli, muxtar respublikanın inkişafına öz töhfələrini verməlidirlər. Kənddə tikilib qurulanlar qorunub saxlanılmalı, abadlıq işləri davam etdirilməlidir.



Ali Məclisin Sədri sakinləri təbrik etmiş, onlara firavan həyat arzulamışdır.

Kənd ağsaqqalı Sabir Şabanov minnətdarlıq edərək demişdir: Muxtar respublikamızda quruculuq işləri Ali Məclis Sədrinin uzaqgörən siyasəti nəticəsində sürətlə inkişaf edir və bütün kəndlərimiz günü-gündən gözəlləşir. Bu gün Xələc kəndində də müasir tələblərə cavab verən məktəb binasının, kənd və xidmət mərkəzlərinin və yeni çəkilmiş yolun istifadəyə verilməsi kənd sakinləri arasında böyük sevinclə qarşılanır. Əvvəlcə kəndin yolları pis vəziyyətdə idi. Rayona gedib-gəlmək çətin idi. Sakinlər əziyyət çəkirdi. İndi isə yollar abadlaşmış, Yengicə-Xələc-Çomaxtur kənd avtomobil yolu yenidən qurulmuş, kəndin küçələrinə asfalt örtük salınmış, telefon, internet, qaz və elektrik xətləri yenilənmişdir. İndi Xələc kəndi ilə şəhər arasında heç bir fərq qalmamışdır.

Bu il ailə təsərrüfatları ilidir. Xələc kəndinin sakinləri də zəhmətkeş, torpağa bağlı insanlardır. Kənd camaatının əsas məşğuliyyəti əkinçilik və maldarlıqdır. Ali Məclis Sədrinin qayğısı ilə Araz çayından çəkilən suyun hesabına kəndin su problemi həll edilmişdir. Bizə verilən pay torpaqlarını əkir, vaxtlı-vaxtında suvara bilirik. Bunlar hamısı Ali Məclis Sədrinin kənd sakinlərinə göstərdiyi diqqət və qayğının sayəsindədir. Çalışacağıq ki, bundan sonra da torpaqlarımızı əkib-becərək, yaxşı məhsul əldə edək, yarmarkalarda, festivallarda rayonumuzu layiqincə təmsil edək.

Ali Məclisin Sədri kənd sakinləri ilə xatirə şəkli çəkdirmişdir.

* * *

Xələc kəndində abadlıq işləri də aparılmış, 1364 metr fiber-optik, 9195 metr rabitə xətləri, 2 transformator yenidən qurulmuş, 7000 metr izolyasiyalı hava elektrik xətti çəkilmişdir. 1734 metr yeni qaz xətti çəkilmiş, 4450 metr mövcud qaz xətti təmir olunmuşdur. 5,9 kilometr kollektor lildən təmizlənmiş, mövcud subartezian quyusu təmir edilmişdir.



## Sənaye məhəllələrinin yaradılması yeni layihələrə yol açır

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli müvafiq Fərmanına əsasən Şərur rayonunda Sənaye Məhəlləsi yaradılır.

Dekabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur Sənaye Məhəlləsinin yaradıldığı əraziyə gəlmiş, görülən işlərlə tanış olmuşdur.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev layihə əsasında sənaye məhəlləsində yaradılacaq istehsal sahələri haqqında məlumat vermişdir. Qeyd olunmuşdur ki, 6 istehsalat korpusundan ibarət olacaq sənaye məhəlləsində ilkin olaraq bitki yağı, ofis ləvazimatları, kağız-torba və corab istehsalı sahələrinin yaradılması nəzərdə tutulmuşdur. Məqsəd tələbatın müəyyən hissəsini yerli istehsal hesabına ödəmək, əhalinin məşğulluq səviyyəsini artırmaqdır. Tikinti aparılacaq sahələr, o cümlədən istehsal prosesi, istehsal sahələrinin illik gücü, məhsulların ümumi dəyəri, alınacaq avadanlıqlar haqqında da ətraflı məlumat verilmişdir.

Ali Məclisin Sədri tikinti işlərinin layihəyə uyğun aparılması, daha çox tələbat olan məhsulların istehsalına üstünlük verilməsi, mühəndis-texniki tələblərə əməl olunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 843